**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**08.12.2022-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 2**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1. “2022/2023- cü tədris ilində qış imtahan sessiyasına hazırlığın vəziyyəti” barədə İctimai Səhiyyə Fakültəsinin dekanlığı tərəfindən hazırlanmış və fakültənin akademik məsləhətçisi N.Məmmədovanın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin.
2. 2021-2022-ci tədris ilində yay peşə təcrübəsinin nəticələrinin müzakirəsi və tələbələrin peşə hazırlığının yaxşılaşdırılması işində fakültə kollektivinin vəzifələri barədə Fakültənin istehsalat təcrübəsi üzrə koordinatoru dos. Q.Hacıyevanın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin.
3. İctimai sağlamlıq və Səhiyyənin təşkili kafedrasının müdiri prof. R.Ə.Çobanovun kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:
1.Kafedralarda tələbələrin sərbəst işlərinin qəbuluna diqqət yetirilsin.
2. Tələbələrin yekun balları universitetin tədris hissəsi tərəfindən müəyyən edilmiş vaxtda və düzgün olaraq ETS -ə yerləşdirilsin
3. İmtahan sessiyası zamanı kafedralarda məsləhət saatlarının təşkilinə və təqdim olunmuş cədvələ uyğun fəaliyyətinə ciddi nəzarət edilsin.
4. Qış imtahan sessiyasına təyin olunan nəzarətçilərin fəaliyyəti diqqətdə saxlanılsın. Sessiya müddətində nəzarətcilərin fəaliyyətindəki nöqsanlara kafedra müdirləri və ETM-in direktoru məsuliyyət daşıyır.
III.1. Peşə təcrübəsinə aidiyyatı olan kafedralarda peşə təcrübəsinin gedişinə və rəhbərlik edən əməkdaşların işinə nəzarət gücləndirsin.
2. Fakültənin istehsalat təcrübəsi üzrə koordinatoru dos. Q.Hacıyevaya tapşırılsın ki, peşə təcrübəsi keçirilən bazaların rəhbərliyi ilə mütəmadi görüşlər keçirsin və daha məsuliyyətli əməkdaşların peşə tərcübəsinə cəlb olunmasına nəzarəti gücləndirsin.

IV. Elmi Şuranın qərarları kafedra iclaslarında 3 iş günü müddətində müzakirə olunsun və protokol dekanlığa təqdim olunsun.

V. Dekanlığa tapşırılsın ki, Elmi Şurada verilən qərarların icrasına nəzarət etsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: dos. G.X.İbrahimova

.